# GÜRCÜSTAN

SAYI 39-40 (13.409)
CÜMƏ 23 MAY 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"ს ა ქ ა რ თ ვ ე ლ ო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივი-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## M. KAVELAŞVİLİ DÜNYA LİDERLƏRİ İLƏ BİRLİKDƏ VATİKANDA PAPANIN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK EDİB



***Ölkəmizin prezidenti Mixeil Kavelaşvili Vatikanın Müqəddəs Pyotr meydanında dünya liderləri ilə birlikdə Romanın yeni Papası XIV Leonun andiçmə mərasimində iştirak edib.***

Mixeil Kavelaşvili XIV Leonu təbrik edib və ona məsuliyyətli missiyanda uğurlar arzulayıb.

Qeyd edək ki, həmin gün Roma Papası XIV Leo papalıq hakimiyyətinin simvollarını – "balıqçı üzüyü" və pallium (xaçlarla işlənmiş yun lenti) təhvil alıb.

Vatikanın Müqəddəs Pyotr meydanında çoxsaylı dindarlar, həmçinin 150-dən çox xarici dövlət nümayəndə heyəti, kral ailələrinin və dini konfessiyaların nümayəndələri iştirak ediblər.

## KƏŞFİYYAT XİDMƏTİ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN TABELİYİNƏ VERİLİR

***Baş nazirin birbaşa tabeliyində olan kəşfiyyat xidməti Dövlət Təhlükəsizliyi Xidmətinin idarəetmə sahəsinə keçirilir.***



Bu barədə məlumat parlamentə təqdim edilmiş 26 qanunda nəzərdə tutulan qanunvericilik dəyişiklikləri paketində əksini tapıb.

Kəşfiyyat xidməti Dövlət Təhlükəsizliyi Xidmətinin tabeliyində olan qurum – Milli Kəşfiyyat Agentliyi kimi formalaşacaq.

Qanun layihələrində agentliyin fəaliyyəti və səlahiyyətləri, tərkibi, təşkili və strukturu, agentlik əməkdaşının xidməti fəaliyyətinə müdaxilənin yolverilməzliyi, onun hüquqi müdafiə zəmanətləri və agentliyin maliyyələşdirilməsi ilə bağlı məsələlər yeni qaydada tənzimlənir.

Qeyd edək ki, qanunvericilik paketinin təşəbbüskarları "Gürcü Arzusu" fraksiyasının deputatlarıdır.

## XÜSUSİ İSTİNTAQ XİDMƏTİNİN LƏĞVİNİ NƏZƏRDƏ TUTAN QANUN LAYİHƏSİ PARLAMENTƏ TƏQDİM EDİLİB



***"Gürcü Arzusu" fraksiyasının deputatları tərəfindən hazırlanmış Xüsusi İstintaq Xidmətinin ləğvini nəzərdə tutan qanunvericilik paketi artıq parlamentdə təşəbbüs kimi irəli sürülüb.***

Layihəyə əsasən, "Xüsusi İstintaq Xidməti haqqında" qanun qüvvədən düşmüş hesab olunur və müvafiq olaraq, bu qurum ləğv edilir. Eləcə də Xidmətin rəhbərinin, onun birinci müavininin və digər müavinlərinin vəzifələri də ləğv olunacaq.

Qanun layihəsində qeyd olunur ki, Xidmətin rəhbər şəxslərinə və əməkdaşlarına maliyyə kompensasiyası verilməsi öhdəliyi müəyyən edilir.

Bundan əlavə, Xüsusi İstintaq Xidmətinin yurisdiksiyasına aid olan cinayət işləri bundan sonra Prokurorluğun istintaq səlahiyyətinə keçəcək.

Təklif edilən dəyişikliklər 20 qanun aktına təsir edəcək.

Qanun layihəsinin müəllifləri və təşəbbüsçüləri aşağıdakı deputatlardır: Arçil Qorduladze, Tornike Çeişvili, Davit Matikaşvili, Tengiz Şarmanaşvili, Quram Maçaraşvili, Aleksandre Tabatadze, Rati İonatamişvili, Akaki Aladaşvili və Aluda Quduşauri.

### TƏHSİL

## BAŞ NAZİR "SON ZƏNG" MÜNASİBƏTİLƏ MƏZUNLARA MÜRACİƏT EDİB...

***Baş nazir İrakli Kobaxidze "Son zəng" münasibətilə məzunları təbrik edib və onlara uğurlar arzulayıb.***



Bu barədə Baş nazir hökumətin iclasında qeyd edib.

O bildirib ki, yeni nəsil həyat yolunda ölkənin daha yaxşı gələcəyinin qurulmasında mühüm rol oynamalıdır:

*"Bütün şagirdləri, bu gün həyatlarının yeni mərhələsinə qədəm qoyan hər kəsi məktəbi bitirmələri münasibətilə təbrik edirəm. İnsan həyatında son zəng bir çox müsbət emosiyalarla yanaşı, xoşbəxt gələcəyə inam hissi ilə də əlaqələndirilir. Hər birinizə sülh dolu parlaq gələcək, öz məqsəd və arzularınızı gerçəyə çevirməyi və maraqlı, rəngarəng bir həyat arzulayıram. Əminəm ki, yeni nəsil həyat yolunda qarşılaşacağı yeni çağırışlara daha böyük həvəslə cavab verəcək və ölkəmizin daha yaxşı gələcəyinin qurulmasında öz mühüm töhfəsini verəcək,"* – deyə İrakli Kobaxidze bildirib.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN TƏHSİL NAZİRLƏRİ LONDONDA GÖRÜŞÜBLƏR

***Böyük Britaniyanın London şəhərində keçirilən 21-ci Dünya Təhsil Forumu çərçivəsində Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev ilə Gürcüstanın təhsil, elm və gənclər naziri Aleksandre Tsuladze arasında görüş baş tutub.***



Bu barədə Azərbaycanın Elm və Təhsil Nazirliyi məlumat yayıb.

Görüş zamanı iki ölkə arasında ümumi və ali təhsil sahəsində mövcud əməkdaşlıq əlaqələri, eləcə də bu istiqamətdə gələcək inkişaf perspektivləri müzakirə olunub.

## BU İL 12-ci SİNFİ 41,2 MİN ŞAGİRD BİTİRİR



***2024-2025-ci tədris ilində on ikinci sinfi 41,2 min şagird bitirir.***

Bu, "Sakstat" ın məlumatında qeyd olunub.

Məlumata görə, on ikinci sinif şagirdlərinin bu sayı 2023 və 2022-ci illərdə tam ümumi təhsili başa vuranların sayından (47,5 və 45,9 min nəfər) az olsa da, əvvəlki illə (41,4 min nəfər) demək olar ki, eynidir.

Bundan əlavə, son 10 ildə məktəbi hər il orta hesabla 41,3 min şagird bitirib.

"Sakstat"ın məlumatına görə, bu 41,2 min şagirddən 37,5 min şagird dövlət məktəblərində təhsil alır, özəl məktəbləri bitirənlərin sayı 3,7 min nəfərdir.

Bundan başqa, yaxın illərdə məktəb məzunlarının sayının kəskin şəkildə artacağı gözlənilir, belə ki, hazırda IX sinfi 59,6 min şagird bitirir və onların əksəriyyəti üç ildən sonra on ikinci sinfi bitirəcək. Bundan sonra əvvəlcə 56 minə, sonra 55 minə düşəcək, lakin 6 ildən sonra yenidən 58 minə çatacaq.

Məktəblilərin ümumi sayına gəlincə, 2024-2025-ci tədris mövsümü üçün bu, 640,7 min nəfər olub ki, bu da 2009-cu ildən bu yana rekord göstəricidir. Bu şagirdlərin 89 faizi dövlət, 11 faizi isə özəl məktəblərdə təhsil alır. Bundan başqa, özəl məktəblərin sayı əvvəlki illə müqayisədə 6 faiz artaraq 70,3 min ədəd təşkil edir.

## Aİ RUSİYAYA QARŞI 17-ci SANKSİYA PAKETİNİ TƏSDİQLƏYİB

***Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı 17-ci sanksiya paketini təsdiqləyib.***



Bu barədə Aİ diplomatiyasının rəhbəri Kaya Kallas "X" sosial şəbəkəsində yazıb.

*"Aİ Rusiyaya qarşı 17-ci sanksiya paketini qəbul edib. "Qara siyahı"ya 200-ə yaxın tanker daxil edilib"*, - deyə o bildirib.

Kaya Kallas vurğulayıb ki, artıq Moskvaya qarşı 18-ci sanksiya paketi üzərində işə başlanılıb.

# İ. KOBAXİDZE: "ABŞ GÜRCÜSTANIN SAYƏSİNDƏ 2,5 MİLYARD DOLLARA QƏNAƏT EDİB"



*ABŞ gürcü hərbçilərin Əfqanıstan və İraqdakı missiyalarda iştirakı sayəsində 2,5 milyard dollara qənaət edib.*

Bunu Baş nazir İrakli Kobaxidze yerli "İmedi" telekanalına müsahibəsində deyib.

*"Amerika tərəfi bizim Əfqanıstan və İraqdakı missiyalarda iştirakımız sayəsində 2,5 milyard dollara qənaət edib. Eyni zamanda ABŞ büdcəsindən ölkəmizə real yardım 2,5 milyard dollardan çox azdır"*, - deyə İ. Kobaxidze bildirib.

Hökumət başçısı vurğulayıb ki, o, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID) və Demokratiyaya Dəstək Milli Fondunun xətti ilə Gürcüstana yardım adı altında ayrılan pulları nəzərdə tutmur. Baş nazirin sözlərinə görə, bu təşkilatlar vasitəsilə ayrılan pullar ölkədəki iğtişaşlara xərclənib.

Bundan əlavə, hökumət başçısının sözlərinə görə, Gürcüstan hərbi tapşırıqları yerinə yetirərkən 32 hərbi qulluqçusunu itirib:

*"Bizim ABŞ Prezidenti Donald Trampın administrasiyası qarşısında qoyduğumuz yeganə tələb ədalətdir"*, - deyə Kobaxidze fikirlərini yekunlaşdırıb.

# DÖVLƏT NAZİRİ TEA AXVLEDİANİ GƏNCLƏRLƏ GÖRÜŞ KEÇİRİB

***Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə Dövlət naziri Tea Axvlediani müxtəlif ali məktəblərdən və peşə məktəblərindən 150-yə yaxın tələbə ilə görüşüb.***




Tea Axvlediani gəncləri bölmənin səlahiyyətlərinə aid olan hər iki siyasətin - uzlaşma və inklüzivlik və vətəndaş bərabərliyi və inteqrasiyasının məqsədləri, həyata keçirilən fəaliyyətləri və gələcək baxışları ilə tanış edib. Nazir həm sülh təşəbbüslərində, həm də vətəndaş inteqrasiyası prosesində gənclərin iştirakının və rolunun artırılmasının vacibliyindən danışıb. Tea Axvlediani tələbələri gənclərin təşəbbüslərini dəstəkləmək üçün həyata keçirilən mexanizmlər və mövcud imkanlarla ətraflı tanış edib.

Diskussiya formatında gənclər dövlət nazirinə sual vermək, öz fikir və mülahizələrini bildirmək imkanı əldə ediblər.

Tədbir Gənclər Agentliyinin təşəbbüsü və təşkilatçılığı ilə baş tutub. Görüşdə agentliyin rəhbəri vəzifəsini icra edən Vaxtanq Baakaşvili iştirak edib.

*"Dövlət Naziri Aparatının elan etdiyi prioritet gənclərin cəlb edilməsinə dəstək olmaq və onların həm barışıq, həm də vətəndaş bərabərliyi siyasətinin həyata keçirilməsində rolunu gücləndirməkdir. Məhz bu məqsədə müxtəlif formatlarda gənclərlə mütəmadi görüşlərimiz, o cümlədən bugünkü tədbirimiz daxildir. Onun çərçivəsində biz gəncləri Gürcüstanın gələcəkdə möhkəmləndirilməsi və sülh prosesinin prioritetləri, multimilli cəmiyyətə inteqrasiyası, eləcə də çoxmillətli inteqrasiya prosesi ilə tanış etdik. Müvəqqəti olaraq işğal olunmuş Abxaziya və Tsxinvali bölgələrimizə münasibətdə barışıq və etimadın bərpasına yönəlmiş sülh təşəbbüsləri ilə və gənclərlə əlaqəli məsələlərlə bağlı, həyata keçirilən çox maraqlı və dinamik müzakirələr aparıldı ki, bu da onların milli maarifləndirilməsinin və təbliğinin əsas məqsədlərindən biri olduğunu nəzərə alsaq, çox sevindiricidir"*. - deyə dövlət naziri Tea Axvlediani bildirib.

# AŞIQ NARGİLƏ MEHTİYEVANIN GÜRCÜSTANIN İCTİMAİ TELEVİZİYADAKI ÇIXIŞI RƏĞBƏTLƏ QARŞILANIB



***Aşıq Nargilə Mehtiyeva Gürcüstanın İctimai Televiziyasında yayımlanan "Xalq Mahnısı" layihəsində iştirak edib. Layihə ölkədə geniş tamaşaçı auditoriyasına malikdir.***

Xanım aşığımız səhnədə Aşıq Ələsgərin "Düşdü" misralarına bəstələnmiş "Səməndəri" havasını ifa edib.

Onun çıxışı münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib və rəğbətlə qarşılanıb.

# GÜRCÜSTANDAN 33 XARİCİ VƏTƏNDAŞ DEPORTASİYA OLUNUB

***Miqrasiya Departamenti və Daxili İşlər Nazirliyinin aidiyyəti qurumlarının birgə koordinasiyası ilə keçirilən kompleks tədbirlər nəticəsində son günlər ərzində 33 xarici ölkə vətəndaşı ölkədən deportasiya edilib.***

Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Nazirliyin yaydığı məlumatda bildirilir ki, onların bir hissəsi Gürcüstanı könüllü tərk edib, digərləri isə məcburi qaydada çıxarılıb. Deportasiya olunan şəxslərə Gürcüstana daxil olmaq qadağan edilib.

Qeyd olunur ki, deportasiya olunanlar Hindistan, Misir, İordaniya, Türkiyə, Pakistan, Çin, İran, Banqladeş, İraq, Rusiya, Azərbaycan və Türkmənistan vətəndaşlarıdır.




# 40 000-Ə YAXIN ŞƏXSİN SÜRÜCÜLÜK VƏSİQƏSİ LƏĞV EDİLİB

***Sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə etdiyinə görə son 3 il ərzində 40 000-ə yaxın şəxsin sürücülük vəsiqəsi ləğv edilib.***

Bu barədə "Yol Təhlükəsizliyi üzrə Tərəfdaşlıq Fondu"nun direktoru İrakli İzoria məlumat verib.

Onun sözlərinə görə, sərxoş vəziyyətdə nəqliyyat idarə etməyə görə qanunun daha da sərtləşdirilməsi və yeni identifikasiya metodlarının tətbiqi müsbət hal olardı:

*"Təsəvvür edin, bu qədər insanın sərxoş halda sükan arxasına keçməsi*



*nə qədər böyük risk yaradır və hələ bir o qədər də insan var ki, həmin anda aşkarlanması mümkün olmayıb.*

*Belə şəxslər çox böyük risk altındadırlar – həm özlərinə, həm də başqalarına zərər verə bilərlər. Yol patrulu bütün bu şəxsləri yoxlaya bilmir və mənim fikrimcə, bu istiqamətdə qanun daha da sərtləşdirilməli və identifikasiya üçün alternativ metodlar da tətbiq edilməlidir,"* – deyə İzoria bildirib.

## Sitat guşəsi



"Kadr dəyişikliyi tamamilə sağlam bir hadisədir, belə şeylər keçmişdə də baş verib və bu cür dəyişikliklər yalnız və yalnız bizim resurslarımızın güclənməsinə xidmət edir".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Rusiya prezidenti Vladimir Putinlə iki saatlıq söhbəti indicə bitirdim. Məncə, çox yaxşı keçdi. Rusiya və Ukrayna dərhal atəşkəs və ən əsası müharibənin dayandırılması ilə bağlı danışıqlara başlayacaqlar. Bunun şərtləri iki tərəf arasında müzakirə olunacaq, çünki yalnız belə bir şey ola bilər. Çünki onlar danışıqların heç kimin şübhə etmədiyi təfərrüatlarını bilirlər. Söhbətin tonu və ruhu əla idi".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



"Söhbət uzun və rəngarəng xarakter daşıyıb. Başa düşdüyüm kimi, prezident Tramp Ukrayna və Rusiya arasında birbaşa danışıqların çox vacib olduğuna inanır. Bu, onun mövqeyidir və nəticədə uzun müddət danışdıq. Əsas odur ki, o, Rusiya tərəfinin mümkün atəşkəs və öz baxışlarında növbəti addımlar kimi gördükləri müvafiq siqnalları verəcəyinə inanır".

**Volodimer Zelenski,**
**Ukraynanın Prezidenti.**



"Bu gün dünya sülhü üçün mühüm bir gün idi. Gərgin diplomatik səylər nəticəsində Rusiya və Ukrayna nümayəndə heyətləri Türkiyənin vasitəçiliyi ilə İstanbulda görüş keçirib. Görüşün nəticəsi olaraq etimadın möhkəmləndirilməsi məqsədilə hər ölkədən min nəfərin mübadiləsi barədə razılığa gəliblər. Onlar, həmçinin atəşkəs əldə etməyə imkan verəcək şərtləri yazılı şəkildə qarşı tərəflə bölüşməyə razılaşıblar. Tərəflər yenidən görüşmək barədə də prinsipial razılığa gəliblər. Türkiyə olaraq Rusiya ilə Ukrayna arasında davamlı sülhün əldə olunması üçün hər cür səy göstərməyə davam edəcəyik".

**Hakan Fidan,**
**Türkiyənin xarici işlər naziri.**



"Bilirik ki, bu korrupsiya dövlət idarəçiliyinin vətəndaşlara bərabər şəkildə göstərilməsinə təsir göstərir. Burada bizi qəbul edən Azərbaycan hökumətinə təşəkkürümü bildirirəm. Çünki Azərbaycan BMT-nin korrupsiyaya qarşı konvensiyasında iştirak edir. Azərbaycan həm nəzərdən keçirilən, həm də nəzərdən keçirən dövlət kimi burada iştirak edir. Hamımız hesab edirik ki, BMT olaraq Azərbaycan hökumətinə dəstəyimizi davam etdirəcəyik".

**Vladanka Andreyeva,**
**BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi.**

# REGİON XƏBƏRLƏRİ

## Saqareco: MER AVTANDİL QULİKAŞVİLİ MUZEY İŞÇİLƏRİ İLƏ GÖRÜŞÜB



***Beynəlxalq Muzeylər Günü münasibətilə Saqareco Bələdiyyəsinin meri Avtandil Qulikaşvili bələdiyyə ərazisində fəaliyyət göstərən muzeylərin əməkdaşları ilə görüşüb, onları peşə günü münasibətilə təbrik edib.***

Saqareco Diyarşünaslıq Muzeyinin sərgi salonunda keçirilən görüşdə mer mədəniyyət sahəsində həyata keçirilməsi nəzərdə tutulan layihələrdən danışıb, həmçinin muzey əməkdaşlarının ehtiyacları barədə məlumat alıb.

*"Mən bütün tarix-diyarşünaslığımızın, Qoqla Leonidze və Revaz İnanişvili adına muzeylərin əməkdaşlarını peşə günü münasibətilə təbrik etmək istəyirəm.*

*Bələdiyyəmizin mədəni irsinin qorunub saxlanmasında, öyrənilməsində və təbliğində Sizin rolunuz mühümdür.*

*Sizə uğurlar arzulayıram",* - deyə Avtandil Qulikaşvili qeyd edib.

## Qardabani: DÖVLƏT MÜVƏKKİLİ LEVAN XARABADZE QARDABANİ HÖKUMƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜB



***Dövlət müvəkkili bələdiyyədə həyata keçirilən layihələr barədə ətraflı məlumat əldə edib. Keçirilən görüş çərçivəsində cari və planlaşdırılan infrastruktur layihələri və sosial proqramlar, idman, mədəniyyət və gənclər sahələrində həyata keçiriləcək tədbirlər, mövcud problemlər müzakirə edilib.***

Görüş zamanı dövlət müvəkkili region rəhbərliyi ilə yerli özünüidarəetmə xidmətləri arasında sıx əməkdaşlığın zəruriliyini vurğulayıb.

Görüşdə Qardabani bələdiyyəsinin meri David Karqareteli, deputatlar Ramaz Budaqaşvili, Fuad Mirzoyev, Levan Xmaladze, şəhər şurasının sədri Mixeil Gedexauri, deputatlar Samir Xiyalov, Vüqar Məmmədov, dövlət müvəkkilinin müavinləri İlia Calağonia, Qiqa Namiçeişvili, Nika Kobaxidze və yerli hakimiyyət nümayəndələri iştirak ediblər.

## Marneuli: LAĞİDZE KÜÇƏSİNDƏKİ KÖRPÜ BƏRPA EDİLİR



***Marneuli şəhərinin Lağidze küçəsində, Alget çayı üzərindəki körpüyə giriş-çıxış yolunun tikintisi və sahilbərkitmə işləri fəal şəkildə davam etdirilir.***

Marneuli Bələdiyyəsinin meri Kənan Ömərov, Marneuli Bələdiyyəsi Şəhər Şurasının sədri Amiran Qiorqadze, merin birinci müavini Roin Dekanoidze və yerli hakimiyyət nümayəndələri görülən işlərlə tanış olublar.

Layihə çərçivəsində dəmir-beton divarın tikintisi və asfalt-beton örtüyünün döşənməsi nəzərdə tutulub. Bu, yol infrastrukturunu xeyli yaxşılaşdıracaq.

Layihənin dəyəri 619 997 lari təşkil edir və dövlət büdcəsindən maliyyələşdirilir.

## Telavi: YOLLAR BƏRPA OLUNUR

***Telavi Bələdiyyəsində yol infrastrukturu layihələri fəal şəkildə davam etdirilir.***

May ayının məlumatına əsasən, bələdiyyə üzrə 12 küçənin tam bərpası başa çatıb.

Yaxın gələcəkdə Tetritsqalebi kəndində, qəbiristanlığa gedən yolda; Napareuli kəndində, 2-ci daxili rayon yolunda (Çalisa və Tsakia ərazisi); Qaracalar kəndində, qəbiristanlığa gedən yolda təmir-bərpa işlərinin görülməsi planlaşdırılır.




# BEYNƏLXALQ HƏYAT

## POLŞADA PREZİDENT SEÇKİLƏRİNİN İKİNCİ TURU KEÇİRİLƏCƏK



***Polşada keçirilmiş prezident seçkilərinin ilk turunda heç bir namizəd mütləq səs çoxluğu əldə edə bilmədiyinə görə, seçkilərin ikinci turu iyunun 1-də keçiriləcək.***

İkinci turda mübarizə ilk turda 31,36 faizlə ən çox səs toplayan Varşava meri və Mülki Koalisiya (KO) partiyasının namizədi Rafal Çarskovski və 29,54 faizlə ikinci yerdə millətçi və mühafizəkar hüquqşünas Karol Navrotski arasında olacaq.

Seçkilərin ikinci turu Polşanın gələcək siyasi istiqamətini müəyyən edəcək. Avropa İttifaqı ilə daha sıx əməkdaşlıq və liberal islahatları dəstəkləyən Çaskovski və milli suverenliyi və ənənəvi dəyərləri ön planda tutan Navrotski ölkə ictimaiyyətini əhatə edən iki əsas siyasi düşərgənin təmsilçiləridirlər.

Çaskovski hazırda hökumətdə olan Mülki Koalisiyanın, Navrotski isə ana müxalifəti təmsil edən "Qanun və Ədalət" partiyasının dəstəyinə arxalanır. Bu səbəbdən də seçkilərin nəticəsi yalnız Polşa üçün deyil, həm də Avropa İttifaqı üçün əhəmiyyətli olacaq.

## QƏTƏRİN BAŞ NAZİRİ İRANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ İRANIN NÜVƏ MƏSƏLƏSİNİ MÜZAKİRƏ EDİB

***Qətərin baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdül Rəhman Əl Tani Tehranda İran və Omanın xarici işlər nazirləri Abbas Əraqçi və Bədr əl-Busaidi ilə görüşüb.***

Bu barədə Qətər Xarici İşlər Nazirliyi məlumat yayıb.

*"Görüş zamanı tərəflər Omanın vasitəçiliyi ilə ABŞ və İran arasında aparılan danışıqlarla bağlı son hadisələri müzakirə ediblər",* - deyə bildirilib.

Baş nazir ümid etdiyini bildirib ki, ABŞ və İran regionda və dünyada təhlükəsizliyi gücləndirəcək "ədalətli, davamlı və məcburi razılaşma" əldə edəcəklər.

Qətərin baş naziri İrana səfəri zamanı İslam Respublikasının prezidenti Məsud Pezeşkian tərəfindən də qəbul edilib.



*"Mən sizinlə regiondakı vəziyyətlə bağlı fikir mübadiləsi aparmaqdan və ölkələrimiz arasında iqtisadi əlaqələri müzakirə etməkdən məmnun oldum",* - deyə İran prezidenti "X" sosial şəbəkəsində yazıb.

## İSRAİLİN QƏZZAYA HÜCUMLARI NƏTİCƏSİNDƏ SON 24 SAATDA ƏN AZI 100 NƏFƏR HƏLAK OLUB



***İsrailin Qəzzada yenilənmiş genişmiqyaslı hərbi hücumları nəticəsində son 24 saatda ən azı 100 nəfər həlak olub.***

Bu barədə Qəzza Səhiyyə Nazirliyinin məlumatında qeyd olunub.

Məlumata görə, ölənlərin əksəriyyəti qadınlar və azyaşlı uşaqlardır.

Ümumilikdə, cümə axşamı günü yenilənmiş əməliyyatdan sonra Qəzzada ölənlərin sayı 350-ni keçib.

Qeyd edək ki, Hazırda Dohada İsrail və HƏMAS arasında atəşkəs danışıqlarının yeni mərhələsi davam edir. İsrailin baş naziri Benyamin Netanyahunun mətbuat xidmətinin məlumatına görə, İsrail və HƏMAS arasında Dohada keçirilən dolayı danışıqlarda müharibənin dayandırılması təklifinin müzakirəsi, həmçinin atəşkəs və girovların azad edilməsinə dair razılaşma var. Bəyanatda deyilir ki, müharibənin dayandırılması Qəzza zolağının demilitarizasiyasını, eləcə də HƏMAS döyüşçülərinin ərazidən çıxarılmasını əhatə etməlidir.

## PAPA XIV LEO: "VATİKANI UKRAYNA VƏ RUSİYA ARASINDA DANIŞIQLAR PLATFORMASINA ÇEVİRMƏYƏ HAZIRIQ"



***Papa XIV Leo taxta çıxdıqdan sonra Ukrayna nümayəndə heyətini qəbul edib və Vatikanın Ukrayna ilə Rusiya arasında birbaşa danışıqlara ev sahibliyi etməyə hazır olduğunu bəyan edib.***

Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski açıqlama verib.

*"İnauqurasiya mərasimindən sonra biz Papa XIV Leo ilə görüşdük. O, dünyada milyonlarla insan üçün sülhün rəmzidir. Müqəddəs Taxt-Tacın nüfuzu və səsi bu müharibənin dayandırılmasında mühüm rol oynaya bilər. Vatikana, Ukrayna və Rusiya arasında birbaşa danışıqlar platforması olmaq istəyi və hazırlığı üçün təşəkkür edirəm",* – deyə Zelenski bildirib.

Prezident həmçinin vurğulayıb ki, Ukrayna real nəticələr üçün istənilən formatda dialoqa hazırdır: *"Ukraynaya verdiyiniz dəstəyə və ədalətli, davamlı sülhün müdafiəsində səsləndirdiyiniz aydın mövqeyə görə minnətdaram",* – deyə o qeyd edib.

Qeyd edək ki, mayın 18-də Papa XIV Leo rəsmi olaraq Müqəddəs Taxt-Taca yüksəlib. Vatikanda baş tutan inauqurasiya mərasiminə 250 mindən çox insan qatılıb. Tədbirdə 100-dən çox ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak ediblər.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

***(Əvvəli ötən sayımızda)***




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HEYRAN** *is.* [*ər.*] Gözəl və ya əzəmətli bir şey qarşısında vurulmuşcasına çaşıb qalma; valeh olma.

[Nigar xanım:]

*Eyvazım bənzər laçına,*
*Sonalar heyran saçına.*

"Koroğlu".

□ **Heyran etmək (buraxmaq)** – valeh etmək, məftun etmək, heyrət içində buraxmaq.

*Oğlanın cəsarəti, bu yad yerdə qorxmaması onu* [Zərnigarı] *heyran etmişdi.*

İ. Şıxlı.

**Heyran qalmaq (olmaq)** – valeh olmaq, məftun olmaq; bir şey qarşısında vurulmuşcasına çaşıb qalmaq.

*Nə gözəldir, nə qəribə, səfalı,*
*Heyran olur adam görcək bu halı.*

A. Səhhət.

*Həm də gözəl ney çalır, o qalır yana-yana,*
*Eşidən heyran qalır onun mahnılarına.*

B. Vahabzadə.

**HEYRANEDİCİ** *sif.* Valehedici, məftunedici; ecazkar.

*Heyranedici mənzərə. Heyranedici musiqi. –...Böyük sənətkarların qəlbini həyəcanla döyündürmüş ecazkar el ədəbiyyatının heyranedici sirrini hiss edirsən.*

İ. Əfəndiyev.

**HEYRANLIQ** 1. *is.* Gözəl və ya əzəmətli bir şey qarşısında vurğuncasına valehlik.

[Afşinin] *Babəkə zillənmiş baxışlarında heyranlıq və çaşqınlıq bir-birini əvəz edirdi.*

Ə. Məmmədxanlı.

2. **Heyranlıqla** *zərf* – heyran-heyran, vurğuncasına, valehcəsinə.

*Mən arzularımın hovuzu kənarında durub məqsədimin surətini dərin bir heyranlıqla müşahidə edirəm.*

M. Müşfiq.

**HEYRATI** *is.* [Herat şəhərinin adından] Şərq muğamlarından birinin adı.

*Heyratı oxumaq.*

*Bir pərdə Çahargah, bir sim Heyratı,*
*Bir ağız Dilqəmi gətirin mənə.*

M. Araz.

□ **Heyratı xoruz** – iri, döyüşkən xoruz növü.

**Heyratı kəlağayı** – iri, güllü kəlağayı.

*Heyratı ipək kəlağay,*
*Örtüb qəddi-dala gözəl.*

Aşıq Ələsgər.

**HEYRƏT** 1. *is.* Qeyri-adi, gözlənilməz, qəribə, anlaşılmaz bir şeydən, hadisədən çaşqınlıq halı; təəccüb.

*Usta Murtuz heyrətindən qayıdıb aşağı baxdı.*

Mir Cəlal.

[Oğlan] *yəqin mənim üzümdə heyrət əlaməti görüb əlavə etdi.*

M. Rzaquluzadə.

□ **Heyrət almaq (götürmək, aparmaq)** – çaşıb qalmaq, heyrət etmək.

[Qoşunəli:] *Baba, necə fikir dəryasında üzməyim, məni heyrət aparıbdır…*

Ə. Haqverdiyev.

*Kərəmi heyrət alır,*
*Kərəm xəyala dalır.*

S. Vurğun.

**Heyrət etmək** – təəccüblənmək, heyrətlənmək, təəccüb etmək.

[Qadın Xəlilə:] *Siz belə ailə dostu olduğunuz halda indiyə qədər subay qaldığınıza heyrət edirəm…*

Çəmənzəminli.

**Heyrət içində (içərisində)** – təəccüblənmiş halda, təəccüb içərisində, təəccüblənərək.

*Qızılgül kimidir isti yanaqlar,*
*Heyrət içindədir gələn qonaqlar…*

S. Vurğun.

*Ətrafa baxdıqca* [Aydının] *qara gözləri heyrət içərisində yanırdı.*

H. Seyidbəyli.

**Heyrətdə qoymaq** – 1) bax **heyrətə salmaq;**

2) valeh etmək, heyran etmək.

*Heyrətdə qoyur səni,*
*Çılpaq qadın vücudunun*
*kamil cizgiləri.*

R. Rza.

**Heyrətə gəlmək (düşmək, dalmaq)** – bax **heyrət etmək.**

*Bu iki həmşəhərlilər bir-birinə rast gəldikdə heyrətə dalıb qaldılar.*

Çəmənzəminli.

*Heyrətə düşmüş* (f. sif.) *bağban, saçları çiyinlərindən üzüaşağı tökülən Həcəri gördü və heyrətlə süstləşib dayandı.*

S. Rəhimov.

**Heyrətə salmaq (gətirmək)** – təəccübləndirmək, heyrətləndirmək, təəccübə salmaq.

*Oxu! Qüvvət gəlsin şerə, sənətə;*
*Könlümün quşunu gətir heyrətə.*

M. Müşfiq.

**Heyrətlə** şəklində *zərf* – təəccüblə, heyrət edərək, heyranlıqla.

*Əlisəfa gözlərini heyrətlə döyməyə başladı.*

S. Hüseyn.

**HEYRƏTAMİZ** *sif.* [*ər.* heyrət və *fars.* …amiz] Heyrət doğuran, qəribə, heyrətə salan, təəccüblə, gözlənilməz, heyrətəngiz.

*Heyrətamiz mənzərə. – Dünya hadisələri heyrətamiz bir sürətlə inkişaf edir, insanları hər gün yeni bir vaqiə qarşısında buraxırdı.*

M. İbrahimov.

**HEYRƏTƏNGİZ** [*ər.* heyrət və fars. …əngiz] bax **heyrətamiz.**

*Nigar heyrətəngiz bir sima ilə baxdı, düşündü və böyük qardaşına fikrini açıq söyləməyə cəsarət eləmədi.*

Çəmənzəminli.

**HEYRƏTLƏNDİRMƏK** *f.* Heyrət doğurmaq, heyrətə salmaq, təəccübləndirmək.

[Abışın] *səsi Qədiri daha da heyrətləndirirdi.*

Mir Cəlal.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| **ა** | a | ან | **მ** | m | მან | **ღ** | ğ | ღან |
| **ბ** | b | ბან | **ნ** | n | ნარ | **ყ** | ğ* | ყარ |
| **გ** | q | გან | **ო** | o | ონ | **შ** | ş | შინ |
| **დ** | d | დონ | **პ** | p* | პარ | **ჩ** | ç | ჩინ |
| **ე** | e | ენ | **ჟ** | j | ჟან | **ც** | ≈ ts* | ცან |
| **ვ** | v | ვინ | **რ** | r | რაე | **ძ** | ≈ dz | ძილ |
| **ზ** | z | ზენ | **ს** | s | სან | **წ** | ≈ ts | წილ |
| **თ** | t | თან | **ტ** | t* | ტარ | **ჭ** | ≈ tç | ჭარ |
| **ი** | i | ინ | **უ** | u | უნ | **ხ** | x | ხან |
| **კ** | k* | კან | **ფ** | p | ფარ | **ჯ** | c | ჯან |
| **ლ** | l | ლას | **ქ** | k | ქან | **ჰ** | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**დრო – არამბრუნებადი სიმდიდრე** (Dro – arambrunebadi simdidre)

**Zaman – geri dönməyən sərvət**

**დრო – ადამიანისათვის ერთ-ერთი ყველაზე ფასეული საუნჯეა.** (Dro – adamianisatvis ert-erti ğvelaze paseuli sauncea.) **– Zaman insanın sahib olduğu ən dəyərli nemətlərdən biridir.**

**მისი ყიდვა, შენახვა ან დაბრუნება შეუძლებელია.** (Misi ğidva, şenaxva an dabruneba şeudzlebelia.) **- Onu almaq, saxlamaq, nə də geri qaytarmaq mümkündür.**

**ხანდახან ვერ ვაცნობიერებთ, როგორ სწრაფად გადის დრო, მაგრამ შემდეგ ვხვდებით, რომ უკან დაბრუნება შეუძლებელია.** (Xandaxan ver vatsnobierebt, roqor stsrapad qadis dro, maqram şemdeq vxvdebit, rom ukan dabruneba şeudzlebelia.) **– Bəzən vaxtın necə keçdiyini hiss etmirik, amma sonra anlayırıq ki, geri dönüş yoxdur.**

**ფუჭად დაკარგული დრო დაკარგული შესაძლებლობებია.** (Putçad dakarquli dro dakarquli şesadzleblobebia.) – **Boş keçən zaman itirilmiş imkanlar deməkdir.**

**დროის სწორად განაწილება არის წარმატების მთავარი გასაღები როგორც სწავლებაში, ისე სამუშაოსა და პირად ცხოვრებაში.** (Dros stsorad qanatsileba aris tsarmatebis mtavari qasağebi roqorts stsavlebaşi, ise samuşaosa da pirad tskhovrebaşi.) **– Zamanı düzgün bölüşdürmək həm dərslərdə, həm işdə, həm də şəxsi həyatda uğurun əsas açarıdır.**

**რადგან ადამიანი, რომელიც აფასებს თავის დროს, არასდროს ინანებს.**(Radqan adamiani, romelits apasebs tavis dros, arasdros inanebs.) **– Çünki öz vaxtını dəyərləndirən insan heç vaxt peşman olmaz.**

**ტექნოლოგია, სოციალური მედია და სხვა ფაქტორები ხშირად დროს გვპარავენ.** (Teknoloqia, sotsialuri media da sxva paktorebi xşirad dros qvparaven.) **– Texnologiya, sosial media və digər amillər bəzən zamanımızı oğurlayır.**

**მაგრამ თუ მათ კონტროლს შევძლებთ, დრო ჩვენი მეგობარი გახდება.** (Maqram tu mat kontrols şevdzlebt, dro çveni meqobari qaxdeba.) **– Ancaq biz onlara nəzarət etməyi bacarsaq, vaxt da bizimlə dost olar.**

**დროის დაფასება ნიშნავს პატივისცემას საკუთარი თავისა და მომავლის მიმართ.** (Dros dapaseba nişnavs pativistsemas sakutari tavisa da momavlis mimart.) **– Vaxtın qədrini bilmək – insanın özünə və gələcəyinə olan hörmətidir.**

**რადგან მიუხედავად იმისა, რომ დრო ყველას თანაბრად ეძლევა, მისი გამოყენების წესი გვაქცევს განსხვავებულად.** (Radqan miuxedavad imisa, rom dro ğvelas tanabrad edzleva, misi qamoğenebis tsesi qvaktsevs qansxvavebulad.) **– Çünki zaman hər kəsə bərabər verilsə də, onu necə istifadə etdiyimiz bizi fərqləndirir.**

**დრო – მშვიდი, მაგრამ ფასდაუდებელი საგანძურია.** (dro – mşvidi, maqram pasdaudebeli saqandzuria.) **– Zaman sakit, amma dəyəri ölçüyəgəlməz bir xəzinədir**.

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

12 may 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

## Gürcüstan Mədənəniyyət Nazirliyi: Beş muzeydə bərpa işləri başlanılır

Nazirliyin məlumatına görə, birinci mərhələdə beş xüsusi və təcili müdaxiləyə ehtiyacı olan muzey müəyyən edilib. Bunlar Qiorqi Leonidze Adına Ədəbiyyat Muzeyi, Vaja-Pşavela, İlia Çavçavadze, Titsian və Qalaktion Tabidzelərin ev-muzeyləri və Dadiani Sarayının birinci tarixi binasıdır.

Gürcüstanın mədəniyyət naziri Qiorqi Leonidze adına Ədəbiyyat Muzeyində olub. Sözügedən muzeyin eksponatları yaxın vaxtda müvəqqəti olaraq Ümumi Kitabxananın anbarlarına köçürüləcək. Muzeyin əməkdaşları da bərpa dövründə fəaliyyətlərini orada davam etdirəcəklər. "Bütün muzeylər təmir edilməlidir, amma ilk mərhələdə sənədlərlə, layihə smetaları ilə ilk beşliyə daxil olan işlər görüləcək. Bunlar yalnız muzeylərə məxsus prioritetlərdir. Biz eksponatları müvəqqəti olaraq Leonidze muzeyindən köçürəcəyik, muzey hazırlanıb təchiz olunandan sonra eksponatlar geri qaytarılacaq. Lakin o vaxta gədər eksponatlar ictimai kitabxananın xüsusi anbarında saxlanılacaq, yəni bu məqsədlə xüsusi hazırlanmış müvafiq şəraitə köçürüləcəkdir", -deyə mədəniyyət naziri Tinatin Ruxadze bəyan edib.

Qeyd edək ki, 1850-ci illərdə tikilmiş Ədəbiyyat Muzeyinin binası 1980-ci illərdən bəri bərpa olunmayıb.

## Tarixdə ilk dəfə

Gürcüstan tarixdə ilk dəfə olaraq Beynəlxalq Konkisürmə İttifaqının himayəsi ilə başlanmış "Çellencer" seriyasının fiqurlu konkisürmə üzrə beynəlxalq turniri olan "Trialeti Kuboku 2025"ə ev sahibliyi edəcək.

2014-2015-ci il idman mövsümündən bəri "Çellencer" seriyasına aid yarışlar dünyanın on müxtəlif ölkəsində keçirilib və sözügedən yarışlarda əldə edilən uğurlar böyüklər kateqoriyasında yarışan idmançılar üçün böyük əhəmiyyətə malikdir.

"Çellencer" seriyasından turnirlər idmançılara Avropa və Dünya Çempionatlarında iştirak etmək üçün texniki cəhətdən minimum balı toplayaraq dünya reytinq siyahısında yüksək mövqe əldə etmək imkanı verir. Bundan əlavə, sözügedən turnir idmançılara yeni proqramlar təqdim edərək, daha çox beynəlxalq təcrübə qazanmaq imkanı verir.

Tbilisidə "Çellencer" seriyasından turnirin keçirilməsi üçün təqdim olunmuş ərizələr arasından Beynəlxalq Konkisürmə İttifaqı Gürcüstan Milli Fiqurlu Konkisürmə Federasiyasının prezidenti Mariam Qiorqobianinin təşəbbüsü ilə yeni idman mövsümü üçün hazırlanmış ərizəni seçib.

Federasiya tərəfindən hazırlanan ərizə həm infrastrukturu, həm də idmançılarımızın beynəlxalq arenada əldə etdiyi nəticələri nəzərə aldığı üçün, turnir üçün tələb olunan bütün meyarlara uyğundur.

2025-ci ilin 8-11 oktyabrında Tbilisi Buz Arenasında keçirilməsi planlaşdırılan "Çellencer" seriyasının "Trialeti Kuboku 2025" beynəlxalq turniri Gürcüstanda fiqurlu konkisürmənin populyarlaşdırılması və turnirlərin təşkili üçün daha bir ciddi fürsət olacaq.

9–15 may 2025-ci il "VEÇERNİY TBİLİSİ"

## "Küplər"in yeni sahibi

BMG media platformasının bəyanatına əsasən, biznesmen David Xidaşeli Tbilisidəki Rike parkının məşhur "küplər"ini 20 milyon lariyə satıb. "Küplər"in yeni sahibi 25 aprel 2025-ci ildə qeydiyyatdan keçmiş "Rike Dom" şirkəti olub.

Xidaşeli "küplər"i 2022-ci ilin martında 10,02 milyon lariyə alıb. Özəlləşdirmə haqda qanun əsasında, Xidaşeli qurğuya üç il ərzində 20 milyon lariyə qədər pul yatırmalı idi. Müqavilənin müddəti 12 may 2025-ci ildə qurtarırdı.

İnvestisiya şərtlərinə görə, obyektin ərazisində rəqəmsal incəsənət və texnologiya muzeyi, eləcə də sərgi və konfrans zalları təşkil edilməli idi.

Dövlət Əmlakı üzrə Milli Agentlik bir neçə dəfə küpləri satmağa cəhd edib. Xidaşeli yalnız yeddinci hərracdan sonra 10 milyon lari qarşılığında obyektin sahibi olub. Qeyd edək ki, 5 fevral 2020-ci ildə keçirilən ilk hərracda küplər 95 milyon lari məbləğində qiymətləndirilib.

Torpaq sahəsi ilə birlikdə əmlakın ümumi sahəsi 14 591 kvadratmetrdir.

Rike parkında yerləşən və fəaliyyət göstərməyən konsert zalı musiqi teatrı və sərgi salonunun yerləşdirilməsi üçün nəzərdə tutulmuş iki silindrik binadan ibarətdir.

Vaxtilə layihə 75 milyon lariyə başa gəlib. Qeyri-adi bina yaxınlıqdakı Ədliyyə Evi və Sülh Körpüsü ilə kompozisiyaya uyğunlaşmalı idi.

Lakin bir çox ictimai xadim hesab edir ki, futuristik bina həddən artıq böyükdür və şəhərin panoramasına uyğun gəlmir.

19 may 2025-ci il "KVİRİS PALİTRA"

## "Katolik Kilsəsinin rəhbərini Gürcüstana dəvət etdim" – Mixeil Kavelaşvili sosial şəbəkədə nə yazır?

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Roma Papası XIV Leo ilə görüşüb.

"Mən bir daha Zati-aliləri Katolik Kilsəsinin rəhbəri seçilməsi münasibətilə təbrik edirəm.

Görüşdə biz Gürcüstan və Müqəddəs Taxt - Tac arasında mövcud münasibətləri və əməkdaşlığın möhkəmləndirilməsi perspektivlərini müzakirə etdik - xristian dəyərlərinə əsaslanan əlaqə sıx tərəfdaşlıq üçün mühüm zəmin yaradır.

Mən Roma Papasına Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə verdiyi dəstəyə görə də təşəkkür etdim.

Öz növbəsində, Əlahəzrət gələcəkdə Gürcüstanla tərəfdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirdi.

Görüşün sonunda Katolik Kilsəsinin rəhbərini Gürcüstana dəvət etdim", - deyə Kavelaşvili yazıb.

SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli 16 may tarixli sayımızda)*

### Avokado

Latınca "per-sea americana" adlanan avokado dəfnəkimilər fəsiləsinə aid həmişəyaşıl bitkidir. Avokado ağacının hündürlüyü 20 mertə qədərdir. Avokado meyvəsi armudaoxşar, oval formaya malikdir. Meyvənin qabığı sıxdır, yaşıl rənglidir. Meyvənin daxilində iri çiyid var. Sözügedən meyvənin 400-dən çox növü var.



Arxeologiya məlumatlarına əsasən, avokado eramızdan əvvəl 3-cü minillikdə Mərkəzi Amerikada becərilib. Yerli hindular onu "meşə yağı" adlandırıblar. Avropa qaynaqlarında avokadonun adı ilk dəfə 1553-cü ildə ispan rahib və səyahətçi Pedro Syesa de Leonun "Peru salnaməsi" kitabında qeyd edilib.

Avokado istehsal və ixracında lider ölkə Meksikadır. Avokado birçox tropik və subtropik ölkələrdə də becərilir.

Avokado adətən yetişməmiş halda satılır, lakin aldıqdan sonra yetişməsini təmin etmək mümkündür. Yetişməmiş meyvələrin dadı yetişməmiş armud və ya balqabağa bənzəyir. Yetişmiş meyvələr isə incə konsistensiyaya malikdir və dadı kərə yağı ilə göyərti püresinin qarışığına bənzəyir. Yağ miqdarı olduqca yüksəkdir. Bu meyvə mətbəxdə adətən salatlar və sendviçlər kimi soyuq yeməklərin hazırlanmasında istifadə olunur. Avokadodan hazırlanan ən məşhur yeməklərdən biri sözügedən meyvənin püresindən, tərəvəzlərdən və limon suyundan hazırlanan Meksika milli yeməyi quakamoludur. Eləcə də bu meyvədən isti və ya soyuq halda yeyilən şorba da hazırlanır.

**Avokado insan orqanizmi üçün olduqca faydalı məhsuldur.** Meyvənin faydaları amerikanın yerli əhalisinə qədim zamanlardan məlum idi. Belə ki, ispan dominikan rahib Bernardino de Sahaqun 1576-cı ildə nəşr etdiyi "Yeni İspaniyanın Ümumi Tarixi" kitabında yerli asteklərin verdiyi məlumatlara əsaslanaraq, avokadonun çiyidinin qotur və kəpəyə qarşı faydalarını qeyd edib. Meyvə vitamin və minerallarla olduqca zəngindir. Tərkibində qlükoza, fruktoza, yağlar, A, B, C, K, E, D vitaminləri, kalium və maqnium daxildir.

Avokado ürək xəstəliklərindən qoruyur və qan təzyiqini aşağı salmağa kömək edir. Yuxarıda qeyd olunan kalium ürək və ürək-damar sisteminə faydalı təsir göstərir. Avokado "bəd" xolesterinin səviyyəsini azaldır, dərini və saçı yaxşılaşdırır və həzm sistemini normallaşdırır. Avokadonun tərkibindəki bəzi yağlar (kimyaçılar bu yağları "sabunlaşmayan fraksiyalar" adlandırırlar) osteoartritin müalicəsində istifadə olunur.

**Amma unutmamaq lazımdır ki, hər məhsul kimi, avokado da müəyyən hallarda insan organizmi üçün zərərlidir.** Yuxarıda qeyd etdiyimiz "Yeni İspaniyanın Ümumi Tarixi" kitabında asteklərin avokado meyvəsinin uşaq əmizdirən qadınlar üçün zərərli olduğu qeyd edilib ("süd verənlər avokado meyvəsi yeməməlidir, çünki körpə qidalandıranlarda ishal yaradır"). Meyvənin tərkibində çoxlu yağ var, ona görə də diyetoloqlar qaraciyər xəstəliyi və həzm problemi olan insanlara avokadodan çox istifadə etməyi tövsiyə etmirlər. Yarpaqlar, qabıq və toxumlar zəhərlidir və heyvanların və insanların sağlamlığı üçün təhlükəlidir. Onların tərkibində dərhal ürəyin dayanmasına səbəb olan zəhərli maddə persin var. Avokadonun zərif dadı turş meyvələr və ədviyyatlı qidalarla uyğun gəlmədiyindən, potensial turşu reflü və mədə-bağırsaq narahatlığına səbəb olur. Ona görə də sözügedən meyvə qeyd etdiyimiz yeməklərlə istifadə edilməməlidir. Qaraciyər və ya həzm sistemi xəstəlikləriniz varsa, avokado ehtiyatla istifadə edilməlidir. Xolesistit, pankreatit və mədə xorasının kəskinləşməsi dövründə bu, narahatlığı daha da gücləndirə bilər. Bu, meyvənin yüksək yağ tərkibi ilə bağlıdır: 100 qramda təxminən 15 qram yağ var.



*26 MAY GÜRCÜSTANDA MÜSTƏQİLLİK GÜNÜDÜR*

# AZƏRBAYCAN-GÜRCÜSTAN: İLK MÜSTƏQİLLİK DÖVRÜ DOSTANƏ MÜNASİBƏTLƏRİMİZ

Qafqazın güneyindəki ölkələrin tarixində 1918–1920-ci illərin siyasi mənzərəsi misilsiz dərəcədə önəmli bir mərhələ təşkil edir. Çünkü bu dövrdə bu ölkələrdə ilk xalq (demokratik) cümhuriyyətləri qurulmuşdu, güney qafqazlılar azadlığın şirin dadını dadmışdılar. Sərhəd məsələlərində nə qədər anlaşılmazlıqlar, iddialar olsa da, bu diyarlar arasında siyasi, iqtisadi, mədəni və diplomatik münasibətlər demokratik zəmin döşəmə üzərində çözülməyə çalışılmışdı. Özəlliklə də müstəqil Gürcüstan ilə müstəqil Azərbaycan dövlətləri arasında ənənəvi dostluq ovqatı qorunub gəlişdirilə bilmişdi.

Səriştəli qələm sahibi, tarix elmləri doktoru, Türk Mədəniyyəti və İrsi Fondunun aparat rəhbəri Fəxri Valehoğlunun "Azərbaycan - Gürcüstan münasibətləri (1918–1922-ci illər): diplomatik missiyaların fəaliyyəti prizmasından baxış" monoqrafiyasını irdələdikcə bəhsi keçən dövrdə iki qonşu ölkələrimiz və iki mehriban toplumlarımız arasındakı ülfətin dostanə xarakter daşıdığına bir daha qənaət gətiririk. Bu xüsusu kitab müəllifi belə səciyyələndirməkdədir: "1917–1922-ci illər qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan və Gürcü xalqlarının tarixi taleyində mühüm rol oynamış dövrlərdəndir. Birinci Dünya müharibəsinin son illərinə və postmüharibə dövrünə təsadüf edən, dünyanın yenidən şəkillləndiyi və yeni beynəlxalq münasibətlər sisteminin formalaşdığı həmin dövr Qafqaza da təsirsiz ötüşməmişdir. Strateji coğrafi mövqeyi ilə seçilən bu region dünyanın böyük güclərinin maraqlarının kəsişdiyi nöqtələrdən olmuşdur".

Söhbət açdığımız tədqiqat əsəri ölkələrarası, millətlərarası əlaqələrin çox aktual və önəmli mövzusuna həsr edilib.

O dövrün tarixi-siyasi-mədəni aurasıyla zamanında mən də maraqlanmışam. Bu yöndə Gürcüstan arxivindəki materiallar mənə də tanışdır. Amma dəqiqləşdirəmədiyim bəzi nüanslar da vardı. Örnəyin, Gürcüstan Demokratik Respublikası Müəssislər Məclisinin (parlamentinin) azərbaycanlı deputatı Hüseynqulu Məmmədovun adını məqalələrimdə zikr etsəm də, onun kimliyini tam və dəqiq aydınlaşdıra bilməmişdim. İndi bu kitabdan adı keçən siyasi-ictimai öncümüz haqqında ayrıntılı bilgilər əldə edə bilirik. Bəlli olur ki, müstəqil Gürcüstanın ilk azərbaycanlı parlamentari Hüseynqulu Məmmədov Qaraçöp elatından – Sığnaq qəzasının (Siqnaxinin) Yor Muğanlı kəndindən olmuş, quberniya müvəkkili vəzifəsini icra etmiş, Sosial-Demokratların partiya siyahısı üzrə deputat mandatı qazanmışdı, Gürcüstandakı azərbaycanlıların hüquqlarını qətiyyətlə müdafiə etmişdi.

F. Valehoğlunun gərgin araşdırmalarında bu kimi obyektiv faktlar çoxdur. Monoqrafiyanın məzmununa nəzər yetirincə təqdim edilən yeni faktlar və bu faktlara, həm də müəllifin özünün aşkarladığı faktlara özgüncə, özünə məxsus tərzdə dəyərləndirmələr ilgi çəkir.

Kitabın başlığından da gördüyümüz kimi, əsərdə Güney Qafqazda Çar Rusiyasının süqutundan SSRİ-nin yaranmasınadək olan tarixi olaylar işıqlandırılır. Burada 1917 -ci ilin fevralından 1918 -ci ilin mayına qədərki, 1918-ci ilin mayından 1920-ci ilin aprelinə qədərki və 1920 aprelindən 1922 -ci ilin martına qədərki dönəmlərin siyasi ab - havası ayrı - ayrılıqda gözlər önünə sərilir. Bu mərhələdə Azərbaycan ilə Gürcüstanın qarşılıqlı əlaqələrinə dövlət quruculuğu gedişatı, xarici siyasət, oxşar və fərqli siyasi rejimlərdə qarşılıqlı münasibətlər rakurslarından baxılır.

Fəxri Valehoğlu tarixşünas alim olmaqla yanaşı, çalışdığı, yerinə yetirdiyi vəzifə vəsiləsiylə həm də diplomatiya sahəsində təcrübəyə sahibdir. Bu baxımdan sözü gedən dönəmdə Azərbaycan ilə Gürcüstan arasında diplomatik nümayəndəliklər müstəvisində iş birliklərinin bu monoqrafiyada öncəlikli olaraq incələnməsi elmi - strateji yönlərdən yenidir, orijinaldır. təqdirəlayiqdir. Azərbaycanın Gürcüstandakı və Gürcüstanın Azərbaycandakı diplomatik missiyalarının, səfirliklərin, konsulluqların fəaliyyətləri iki müstəqil dövlətin ortaq məqsədlərə xidmət etdiklərini sübuta yetirir.




Kitabda diqqəti çəkən mövzuların başında bizim üçün "Gürcüstan azərbaycanlıları Gürcüstan Demokratik Respublikasının ərazi bütövlüyü və müstəqilliyinin müdafiəsində" sərlövhəli qisim gəlir. Əsrlər boyunca həm daim Gürcüstana, Gürcü xalqına sədaqət nümayiş etdirmiş olan Gürcüstanlı soydaşlarımızın bu illərdəki həmrəyliyi də bir çətir altına sığındığı, bir günəşin istisinə bərabər qızındığı Gürcü xalqıyla könül birliyinin bariz göstəriciləridir. Kitabdan öyrənirik ki, 1918-ci ildə Gürcüstan torpaqlarının bir hissəsinə iddialı olan Ermənistanın silahlı qüvvələrinin həmin ilin 12 dekabr tarixində Borçalı qəzasının Loru nahiyəsində mövqe tutan Gürcüstan sərhəd bölümlərinə hücumuyla başlanmış Ermənistan - Gürcüstan müharibəsi zamanı Borçalı qəzasının və Qarayazı nahiyəsinin azərbaycanlıları tez bir zamanda könüllü dəstələr təşkil edərək Gürcüstan hərbi komandanlığının əmrinə müntəzir dayanmışdılar. 20 dekabrda 400 nəfərlik müsəlman atlı dəstəsi Qarayazıdan Tiflisə gəlmişdi. Qarayazılıların könüllü süvari dəstəsinə bu bölgənin komissarı, Hümmət firqəsi təmsilçisi Abbasqulu Nuru oğlu komandanlıq etmişdi. Xalq qvardiyası sıralarında Gürcüstan azərbaycanlıları da ölkənin ərazi bütövlüyü uğrunda döyüşlərdə canlarından keçmişdilər.

Dövrün nüfuzlu ictimai - hərbi şəxsiyyətlərimizdən Abbasqulu Nuruyev, Ağabəy Şərifov, Ağaəli Hacı Qəhrəman oğlu, Allahverdi Kəlbiyev, Almaz bəy Mursaqulov, Bağçəli Məmməd oğlu, Böyük bəy Axundov, Cəfər Axundov, Dilənçi Vəli oğlu, Emin ağa Acalov, Əbuzər Molla Pirverdi oğlu, Əhməd Bədəl oğlu, Əhməd Qafarov, Əhməd Qurbanov, Əhməd Özdoyev, Əhməd Tamayev, Ələkbər Babayev, Ələsgər Babayev, Əli İsgəndər oğlu, Əli Qara Qurban oğlu, Əlimirzə Nərimanov, Hacıxəlil ağa, Halay Bayramov, Hüseynqulu Bayramqulu oğlu, Hüseynqulu Məmmədov, İbrahim Hacı Əbuzər oğlu, İsa Zərgərov, İsmayıl Axundov, İsmayıl İsmayılov, İsmayıl Şamil oğlu, İsrafil ağa Acalov, İsrafil bəy Yadigarov, İsrafil İbrahimov, Kazım Məmməd oğlu, Qurban Həsən oğlu, Mahmudəli Məmmədəli oğlu, Məmməd Hacı Yusif oğlu, Məşədi Məsud Əlləz oğlu, Mirzə Adıgözəl Həşimov, Mürsəl Əsgər oğlu, Pirməmməd Ovçuyev, Rüstəm Mustafa oğlu, Süleyman Məhəmməd oğlu, Vəli Məhərrəm oğlu, Ziyəddin Molla Ömər oğlu və bir çox başqalarının fəaliyyətləri barədə kitab sayəsində müfəssəl bilgilənməkdəyik.

"Gürcüstan azərbaycanlıları sakinləri və vətəndaşı olduqları dövlətin tarixinin hər dönəmində olduğu kimi, 1918–1921-ci illər Gürcüstan Demokratik Respublikası dövründə də Gürcü xalqıyla eyni mövqedə dayanaraq ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda ləyaqətlə döyüşüblər. Həmin tarixi dövrə təsadüf edən Ermənistanla müharibədə və Sovet işğalına qarşı döyüşlərdə onlar əsasən könüllü süvari dəstələrdə və xalq qvardiyası sıralarında, Sovetləşmədən sonra isə partizan dəstələrində, o cümlədən milli qəhrəman Kakutsa Çoloğaşvilinin rəhbərlik etdiyi partizan dəstəsində qəhrəmanlıqla vuruşaraq vətən naminə canlarını əsirgəməyiblər". Kitab yazarının bu obyektiv qənaətinə biz də şərikik.

Monoqrafiyanın əsas məziyyətlərindən biri, bizcə, Azərbaycandakı arxiv materiallarıyla yanaşı, Gürcüstandakı arxiv sənədlərinə də yetərincə və peşəkarlıqla müraciət edilməsindədir. Əlbəttə, Tiflisin o dövrdə sadəcə Gürcüstanın deyil, bütün Qafqazın yönətim nöqtəsi mərkəzi statusu daşıması dolayısıyla tarixi qaynaqların əksəriyyəti bu şəhərdə toplanmışdır və bu baxımdan Gürcüstan Milli Arxivinin tarixi sənədlər kolleksiyaları çox zəngindir. Çoxusu Rusca olan bu mənbələrin yanı sıra Gürcücə məxəzlərin, mənbələrin, dövri mətbuatın ustalıqla tədqiqə cəlb edilməsi də kitaba dolğunluq, kamillik və elmi akademiklik gətirən önəmli amillərdir. Fəxri Valehoğlunun Gürcüstan Tiflis doğumlu olması, Gürcücə də yüksək səviyyədə bilməsi bu mövzunu elmi müstəviyə yüksəltməsində mühüm rol oynamışdır. Gürcücəyə elmi yanaşma kontekstində aşinalıq müəllifə bu mövzunu bu dərəcədə problem çərçivəsində elmi təhlil süzgəcindən keçirməsinə, bu qədər stratejik önəmli mükəmməl bir əsər ortaya qoymasına imkan vermişdir.

Həyatdan vaxtsız getmiş qürurumuz professor Valeh müəllimin ciyər parası Fəxri Valehoğlunun milli təəssüblə, doğma yurd sevgisiylə ərsəyə gətirdiyi hər kitabı, hər məqaləsi, hər uğuru yaddaşımızı silkələyir, Valeh müəllimin bugün şad olan əziz ruhu gözümüz önündə canlanır. Sevinməliyik ki, Azərbaycan tarixşünaslığında, diplomatiya arenasında Fəxri kimi səriştəli, məntiqi düşüncəyə malik öz alimimiz, Azərbaycansevər, Gürcüstansevər ziyalımız var. Onun yazılarında yurd-yuva axtarışları təşnəsi, yurddaş qeyrəti gözgörəsidir. Belə bir stratejik əhəmiyyətli elmi əsəri də başqa heç kəs yox, məhz yalnızca Fəxrimiz yaza bilərdi, yazıb da…



**Şurəddin MƏMMƏDLİ,**
**Professor.**

# *AKİF HƏSƏNOV:* GÜRCÜSTAN TARİXİNDƏ YEGANƏ AZƏRBAYCANLIYAM Kİ, MÜSTƏQİLLİYİN BƏRPASI HAQQINDA AKTA İMZA ATMIŞAM



***"Mən yeganə azərbaycanlıyam ki, Gürcüstanın dövlət müstəqilliyinin bərpası Aktına qol çəkmişəm. Özü də o qanlı-qadalı illərdə",*** – bu sözləri 1990-1991-ci illərdə Gürcüstan Ali Şurasının deputatı olmuş Akif Həsənov dedi. Onun sözlərinə görə, bir tərəfdə millətçilərin, bir tərəfdən də keçmiş Sovet hakimiyyətinin böyük təzyiqləri var idi. Buna baxmayaraq, onlar müstəqilliyin bərpasını elan ediblər.

*"Mən 1990-1991-ci ildə Parlamentin üzvü olmuşam.*

*Biz Gürcüstanın müstəqilliyinin bərpası Aktına 1991-ci ildə imza atmışıq. O imza atanlardan biri də mənəm. Hər birimiz, hər bir Parlament üzvü o Akta imza atdı. Bu mənim üçün çox qürurvericidir. Bu mənim üçün böyük qürurdur və bir tarixdir. Gürcüstanda elə bir ikinci azərbaycanlı yoxdur. Yəni məndən başqa qanuni şəkildə seçilmiş Parlament üzvü yoxdur. Gürcüstan tarixində yeganə azərbaycanlıyam ki, Gürcüstan müstəqilliyinin bərpasında iştirak etmişəm. İlk olaraq o zaman Gürcüstan Parlamenti yarandı. Düzdü adı Gürcüstan Ali Soveti idi. Ancaq Parlament artıq digər müstəqil dövlətlərin parlamenti kimi fəaliyyət göstərirdi".*

A. Həsənovun sözlərinə görə, o gündən bu günə qədər çox şeylər dəyişib.

*"Bizim vaxtımızda Parlament qeyri - qanuni olaraq ləğv edildi. Bu Eduard Şevardnadze dövrünə təsadüf edirdi. O, qeyri-qanuni şəkildə hakimiyyətə gəldi. Eyni zamanda, onun özünün hakimiyyətini də qeyri-qanuni olaraq Saakaşvili məhv etdi. Saakaşvililər, nə bilim Şevardnadzelər bu millətin, bu xalqın, Gürcüstan xalqının baş bəlaları olublar".*

Qeyd edək ki, Gürcüstanın dövlət müstəqilliyinin bərpasını dəstəkləyən Akif Həsənov 1952-ci il noyabrın 5-də Marneulidə anadan olub. 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika fakültəsini bitirib. 1973-1983-cü illərdə Marneulinin 70 saylı peşə məktəbində müəllim vəzifəsində çalışıb. A. Həsənov 1983-1989-cu illərdə Marneuli Rayon Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin təlimatçısı, 1992-ci ildə isə rayon İcra Hakimiyyətində müavin olub. O, 1990-1991-ci illərdə Ali Şuranın deputatı olub. Akif Həsənov Marneulinin 45 saylı seçki dairəsindən majoritar deputat və şuranın Humanitar və Sosial Məsələlər Üzrə Komitəsinin üzvü olub. 73 yaşlı sabiq deputat hazırda Marneulidə yaşayır, təqaüdçüdür.

Xatırladaq ki, 1991-ci il aprelin 9-da Gürcüstan SSR-nin Ali Şurası həmin ilin martın 31-də keçirilən ümumxalq referendumun nəticələrini əsas tutaraq Dövlət Müstəqilliyinin Bərpası haqqında Akt qəbul edib. Sənədlə 1918-ci il 26 may tarixli Müstəqillik Aktı və 1921-ci ilin Konstitusiyasının etibarlılığı elan olunub.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**23 may**

•1040 — Qəznəvilər və Səlcuqlular arasında indiki Türkmənistan ərazisində Dandanakan döyüşü baş verib. Döyüş Səlcuqluların böyük və əhəmiyyətli qələbə qazanması ilə nəticələnib.

•1904 — Vyanada qədim Yunan – Roma (klassik) güləşi üzrə ilk dünya çempionatı keçirilib.

•1925 — Gürcüstanda radio yayımı başlayıb.

•Beynəlxalq Güləş Günü qeyd olunur. Sözügedən gün güləşçilərin təşəbbüsü ilə 2013-cü ildə təsis olunub.

•Yamaykada Əmək Günüdür. Bayram ilk dəfə 1939-cu ildə qeyd edilib və 1938-ci ilin bu günündə Yamayka müstəqillik hərəkatının inkişafına töhfə verən fəhlə üsyanını qeyd etmək üçün təsis edilib.

**24 may**

•1571 — Krım xanı Dövlət Giray rusları məğlub edərək Moskvanı yandırıb.

•1800—Sankt–Peterburqda generalissimus Aleksandr Suvorovun dəfn mərasimi keçirilib.

•1899 — **Serqo Amaqlobeli, gürcü dramaturq, anadan olub.**

•1967 — Şıxəli Qurbanov, Azərbaycan yazıçısı, vəfat edib.

•Bolqaristan, Şimali Makedoniya və Rusiyada kirill əlifbasını təsis edən müqəddəs Kirill və Mefodinin də xatirə edildiyi Slavyan Ədəbiyyatı və Mədəniyyəti Günü qeyd edilir.

**25 may**

•1869 — Avstriya imperatoru Frans – İosif və xanımı Elizavetanın iştirakı ilə Vyana Dövlət Opera Evi açılıb.

•1963 — Afrika Birliyi Təşkilatı (OAU) Efiopiyanın Əddis-Əbəbə şəhərində Afrika ölkələrinin ilk konfransında yaradılıb. Birləşmiş Millətlər Təşkilatı bu günü Afrikanın Qurtuluş Günü elan edib.

•1977 — İlk Ulduz Döyüşləri filmi (Dördüncü Epizod) nümayiş olunub və uzun müddət kino tarixində ən çox gəlir gətirən film hesab edilib.

•İordaniya Krallığının müstəqillik Günüdür. İordaniya 25 may 1946-cı ildə Böyük Britaniyadan müstəqil olub.

•Livanda 2000-ci ildə İsrail qoşunlarının cənubi Livanı tərk etməsi münasibətilə Qurtuluş Günü qeyd edilir.

•BMT-nin Baş Məclisi 2024-cü ildə 25 may tarixini Dünya Futbol Günü elan edib.

**26 may**

•1799 — Aleksandr Puşkin, rus şair, anadan olub.

•1918 — Gürcüstan Demokratik Respublikası elan edilib.

•1919 — İlk gürcü poçt markası buraxılıb.

•1938 — Adolf Hitler Volfsburqda "Volkswagen" zavodunun təməl daşını qoyub.

•1939—Merab Kostava, gürcü dissident, musiqişünas, şair, ictimai xadim, anadan olub.

•1986 —Avropa Birliyi Avropa bayrağını qəbul edib.

•**Gürcüstanda Müstəqillik Günü qeyd edilir.**

**27 may**

•1905—Yapon və rus hərbi donanmaları arasında Koreya boğazında yerləşən Tsusima adası yaxınlığında döyüş baş verib. Admiral Toqonun başçılıq etdiyi yapon donanması rus donanmasını məğlub edib.

•1953 — SSRİ-nin Kemerovo vilayətində iki Li-2 təyyarəsi toqquşub. Nəticədə 27 nəfər həlak olub.

•1956 —**Səməd Vurğun, Azərbaycan şairi, vəfat edib.**

•1960 — Türkiyədə bir qrup zabitin başçılıq etdiyi hərbi çevriliş baş verib. Nəticədə o zamankı baş nazir Adnan Menderes devrilib.

• Boliviyada Analar Günü qeyd edilir.

**28 may**

•1918 — Ermənistan və Azərbaycan Demokratik Respublikaları üç Cənubi Qafqaz ölkəsini birləşdirən Zaqafqaziya Demokratik Federativ Respublikasından ayrılaraq, müstəqilliklərini elan ediblər. (Gürcüstan bu addımı iki gün qabaq, 26 mayda atıb).

•1952 — Yunanıstanda qadınlara səsvermə hüququ verilib.

•1964 — İsrailə qarşı mübarizə aparan Fələstin Azadlıq Təşkilatı yaradılıb.

•Azərbaycanın Müstəqillik Günüdür.

**29 may**

•1453 — Sultan II Mehmed başda olmaqla Osmanlılar Konstantinopolu tutublar və Bizans İmperiyasına və onunla birlikdə Roma İmperiyasına son qoyublar.

•1968 — "Mançester" Avrokuboku qazanan ilk inglis futbol klubu olub.

•1975 — Belarus Avtomobil Zavodu Sovet İttifaqında ən böyük yük maşını BelAZ-7520-nin istehsalına başlayıb

•BMT Sülhməramlılarının Beynəlxalq Günü.

## SERQO AMAQLOBELİ



***Serqo Amaqlobeli 1899-cu ildə (başqa məlumatlarda 1898-ci ildə) Kutaisi Quberniyasında zadəqan ailəsində anadan olub. Təhsilini Kutaisi Gürcü Seminariyasında alıb.*** 1919-cu ildə Tbilisi Universitetinə daxil olub. Burada hüquq və ictimai iqtisadiyyat fakültələrində təhsil alıb. 1924-cü ildə universiteti bitirdikdən sonra Tbilisi Universitetində, Tbilisi Konservatoriyasında və Zaqafqaziya Kommunist Universitetində mühazirələr oxuyub, ədəbi fəaliyyətlə məşğul olub. 1925-ci ildə Şota Rustaveli adına teatrın direktoru təyin edilib.

1926-1927-ci illərdə Gürcüstanın "Qoskinprom" ASC-nin sədri olub. "Qoqi Ratiani" (1927) qısametrajlı filmində rol alıb. Kutaisidə 2-ci Dövlət Dram Teatrının yaradılmasında iştirak edib (1928).

1928-ci ildən Moskvada Dövlət Rəssamlıq Elmləri Akademiyasında və SSRİ Mərkəzi İcraiyyə Komitəsi yanında Kommunist Akademiyasında işləyib. Qızıl Ordu və Hərbi Dəniz Qüvvələri Ədəbi Birliyinin üzvü olub. 1931-1932-ci illərdə Yeni Teatrın direktoru və bədii rəhbəri olub. 1928-1937-ci illərdə Amaqlobelinin teatr və kino haqqında tənqidi və nəzəri yazıları sistemli şəkildə Moskva jurnal və qəzetlərində dərc olunub. O, rus dilində bir neçə pyes yazıb: "Yaxşı həyat" (1934-cü ildə İkinci Moskva İncəsənət Teatrı tərəfindən səhnələşdirilib). "Mənim ölkəm" və s. Amaqlobelinin mühüm əsərləri arasında "Teatr və kino problemləri", Tbilisi, 1928; Moskvada rus dilində nəşr olunan "Gürcüstan teatrı", 1930; "Böyük döyüşlərin dramaturgiyası", 1933; "Kiçik Teatr", 1935. və s. vardır.

1933-1936-cı illərdə Kiçik Teatrın direktoru və bədii rəhbəri olub. 1934-cü ilin oktyabrında Romada Beynəlxalq Teatr Konqresində iştirak edərək, "Sovet teatrının yaradıcılıq yolları haqqında" adlı məruzə ilə çıxış edib.

1938-ci ildə Serqo Amaqlobeli Moskvada gürcü millətçi icmasını birləşdirən və ona rəhbərlik edən əksinqilabi, trotskiçi təşkilatın yaradıcılarından biri olmaqda ittiham edilərək həbs olunub. 1936-cı ildən Moskvaya işləməyə dəvət etdiyi dostları Petre Otsxeli, Vaxtanq Abaşidze və Giorgi Jordaniya da onun ortaqları hesab edilərək həbs ediliblər.

13 fevral 1938-ci ildə Amaqlobeli güllələnərək edam edilib.

## SƏMƏD VURĞUN



***Səməd Vurğun 21 mart 1906-cı ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində alıb.*** 1918-ci ildə yeni təsis edilmiş Qazax Müəllimlər Seminariyasına qəbul edilib.

1929-cu ildə Səməd Vurğun İkinci Moskva Universitetinin ədəbiyyat fakültəsinə daxil olub. Moskvadakı təhsil illərində yazdığı siyasi məzmunlu və lirik şeirlər 1930-cu ildə nəşr edilmiş "Şairin andı" adlı kitabında toplanıb. 1934-cü ildə şairin "Könül dəftəri" və 1935-ci ildə "Şeirlər" adlı kitabları nəşr olunub.

1936–1937-ci illərdə Səməd Vurğun tərcüməçilik fəaliyyətinə başlayaraq, Puşkinin "Yevgeni Onegin" mənzum romanını Azərbaycan dilinə tərcümə edib. Bu tərcüməsinə görə şairə Puşkin komitəsinin "A.S.Puşkin medalı" təqdim olunub. Həmin illərdə şair Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin bir hissəsini böyük ustalıqla tərcümə etdiyinə görə, Gürcüstan SSR MİK-in fəxri fərmanı ilə təltif edilib. 1937-ci ilin ikinci yarısında Səməd Vurğun özünün ölməz dram əsərini – "Vaqif"i yazıb. Həmin əsərə görə 1941-ci ildə "Stalin mükafatı"na layiq görülüb. 1941-ci ildə Səməd Vurğun Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında mənzum dramını yazıb. Bu əsərə görə ikinci dəfə "Stalin mükafatı"na layiq görülüb.

Şairin yaradıcılığında Böyük Vətən müharibəsi dövrü xüsusi yer tutub. Müharibə illərində sənətkar 60-dan artıq şeir, bir neçə poema, o cümlədən "Bakının dastanı" poemasını yazıb. 1943-cü ildə ABŞ-də keçirilən müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində şairin yazdığı "Ananın öyüdü" şeiri çox yüksək qiymətləndirilib və dünya ədəbiyyatında bu mövzuda yazılan ən qiymətli 20 əsərdən biri kimi Nyu-Yorkda çap etdirilərək hərbçilər arasında yayılıb. 1945-ci ildə Səməd Vurğun "İnsan" adlı fəlsəfi dram əsərini yazıb.

Səməd Vurğun təkcə məşhur şair deyil, eyni zamanda böyük alim, əvəzsiz təşkilatçı və nəzəriyyəçi olub. 1945-ci ildə o, Azərbaycan SSR Elmlər Akademiyasının akademik seçilib. Qeyd edək ki, Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biri Səməd Vurğun olub. O ömrünün son illərində Akademiyanın vitse-prezidenti olub və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafına əvəzsiz xidmətlər göstərib Elə həmin il Bakıda İranla Mədəni Əlaqələr Cəmiyyəti yaranıb. Bu cəmiyyətin rəhbəri Səməd Vurğun təyin edilib.

Səməd Vurğun 27 may 1956-cı ildə vəfat edib.

## GÜRCÜSTAN

Gürcüstan Cənubi Qafqazda, Asiya və Avropa arasında yerləşir. Şimalda Rusiya Federasiyası, şərqdə Azərbaycan, cənubda Ermənistan, cənub-qərbdə isə Türkiyə ilə həmsərhəddir. Qərbdə Qara Dənizə çıxışı var. Ölkənin paytaxtı Tbilisi şəhəridir. Böyük şəhərləri Kutaisi, Batumi, Qori, Rustavi, Zuqdididir. Rəsmi dili kartvel dil ailəsinə mənsub gürcü dilidir.

**Əhalisi:** 2025-ci il yanvarın 1-nə olan məlumata əsasən, Gürcüstan əhalisinin sayı 3704500 nəfərdir. Əhalinin böyük hissəsi şəhərlərdə yaşayır. Ölkədə 10 əsas etnik qrup yaşayır: gürcülər, azərbaycanlılar, ermənilər, oslar, ruslar, yezidi kürdlər, yunanlar, çeçenlər, ukraynalılar, ləzgilər və assuriyalılar. Azərbaycanlılar ölkənin ikinci böyük etnik qrupudur.



**Tarixi:** E. ə. XII əsrdə Qərbi Gürcüstanda Diaoxa və Kolxa dövlətləri qurulub.

E. ə. IV (300-cü il) əsrdə Gürcüstanın şərqində İberiya və ya Kartli dövləti yaradılıb. Dövlətin paytaxtı Mtsxeta şəhəri olub. 326-cı ildə Kartli Müqəddəs Ninonun vasitəsilə xristianlığı qəbul edib.

V-VI əsrlərdə Gürcüstan ərazisi Bizans və İran arasında gedən daimi müharibələrin arenasına çevrilib. V əsrin sonlarında Kartli çarı Vaxtanq Qorqasali ölkəni birləşdirmək və yad təsirdən çıxarmaq üçün mübarizə aparıb. Bu çar paytaxtı Mtsxetadan yeni qurulan Tbilisi şəhərinə köçürüb.

VII əsrdə İranı və Bizansı məğlub edən Ərəb Xilafəti Gürcüstan ərazisi üzərində hakimiyyətini qurub. XI əsrdə Gürcüstanın birləşmə prosesi başlayıb. XI əsrin sonlarında Böyük Səlcuqlu dövləti Gürcüstan üzərində hakimiyyətini qurub. 1089-cu ildə Gürcüstan çarı IV David (Qurucu) Səlcuqlulara qarşı mübarizə apararaq ölkəni birləşdirib. Bu dövrdə Gürcüstanın qızıl çağı başlayıb ki, zirvəsi çariça Tamar (1166 – 1213-cü illər) dövründə olub. Sözügedən dövr monqol yürüşləri nəticəsində sona çatıb və ölkə bir çox knyazlığa parçalanıb.

XVIII – XIX əsrlərdə İran, Osmanlı və Rusiya Qafqaz üçün mübarizə aparıblar. Mübarizə Rusiyanın qələbəsi ilə nəticələnib və Gürcüstan daxil olmaqla Qafqaz Rusiya imperiyasının tərkibinə daxil edilib.

1917-1918-ci illərdə Rusiyada baş verən inqilab prosesləri nəticəsində Rusiya imperiyası dağılıb və 26 may 1918-ci ildə Gürcüstan Demokratik Respublikası yaradılıb. Yeni dövlət qısa müddətdən sonra, 25 fevral 1921-ci ildə Sovet Rusiyası tərəfindən ilhaq edilib. Gürcüstanda sovet hakimiyyəti 70 il davam edib və 1991-ci ildə Gürcüstan öz müstəqilliyini bərpa edib.

**Coğrafiyası:** Gürcüstanın ərazisi 69,700 $km^2$-dir. Ölkə ərazisindən 25 000-dən çox çay axır. Gürcüstan çayları iki hövzəyə aiddir: Qara dəniz (axınmanın 75%-i) və Xəzər. Xəzər hövzəsinə aid ən böyük çay Kürdür. Qara dəniz hövzəsinin çayları (Qərbi Gürcüstan) vahid sistem təşkil etmir, müstəqil olaraq dənizə tökülür.

**İqtisadiyyatı:** Gürcüstanda metallurgiya, kömür və qida sənayesi var. Metallurgiya müəssisələri manqan və polimetal filizlər, ferroərintilər çıxarır və emal edir. Gürcüstanda kənd təsərrüfatı məhsullarının böyük hissəsi şəxsi bağlarda və təsərrüfatlarda istehsal olunur. İxrac 6,09 milyard dollar, idxal isə 15,44 milyard dollar təşkil edir. Gürcüstanın əsas xarici ticarət tərəfdaşı Türkiyədir.

**Dövlət quruluşu:** Gürcüstan parlament respublikasıdır. İcra hakimiyyəti prezidentin əlində cəmləşib. Ölkənin qanunvericilik hakimiyyətini birpalatalı Gürcüstan parlamenti təmsil edir. İnzibati cəhətdən Gürcüstan ərazisinə iki muxtar respublika daxildir: Abxaziya və Acarıstan.

**Mədəniyyəti**: Gürcüstan folkloru, ənənəvi musiqisi, rəqsi, teatrı, kinosu və incəsənəti ilə məşhurdur. 20-ci əsrin məşhur rəssamları arasında Niko Pirosmani, Lado Qudiaşvili, Elene Axvlediani; məşhur balet xoreoqrafları arasında George Balançine, Vaxtanq Çabukiani və Nino Ananiaşvili; məşhur şairlər - Qalaktion Tabidze, Lado Asatiani və Muxran Maçavariani; məşhur teatr və kino rejissorları - Robert Sturua, Tengiz Abuladze, Qiorqi Danelia və Otar İoseliani və b.

**Elm və təhsil:** Orta təhsil üç pillədən ibarətdir: ibtidai məktəb, əsas məktəb və orta məktəb. Əsas məktəbi bitirdikdən sonra şagirdlərə əsas təhsil haqqında şəhadətnamə, onikinci sinfi bitirdikdən sonra isə tam orta təhsil haqqında şəhadətnamə verilir. On ballıq qiymətləndirmə sistemi qəbul edilib. Paytaxtda Gürcüstanın və Qafqaz regionunun ən qədim universiteti kimi 1918-ci il fevralın 8-də əsası qoyulmuş tədqiqat universiteti olan Tbilisi Dövlət Universiteti yerləşir.

# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

" ს ა ქ ა რ თ ვ ე ლ ო "
" S A K A R T V E L O "

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




MÜSABİQƏ

## "AVROVİZİYA 2025"İN QALİBİ MƏLUM OLUB



*"Avroviziya 2025" Mahnı Müsabiqəsinin qalibi Avstriyanı təmsil edən 25 yaşlı ifaçı JJ olub.* O, *"Wasted Love"* adlı mahnısı ilə 436 xal toplayaraq birinci yerə çıxıb. Nəticə etibarilə, 2026-cı ildə Avroviziyaya ev sahibliyi edəcək ölkə Avstriya olacaq.

Gürcüstanın münsiflər heyəti tərəfindən ən yüksək – 12 xal – İtaliyaya verilib.

Avroviziya qaydalarına əsasən, yarım-final mərhələsində finala keçid yalnız tamaşaçı səsverməsi ilə müəyyən olunur, münsiflər iştirak etməyib. Lakin final mərhələsində həm tamaşaçılar, həm də münsiflər səsvermədə iştirak ediblər.

69-cu Avroviziya Mahnı Müsabiqəsinin final mərhələsi İsveçrənin Bazel şəhərində baş tutub. Finalda ümumilikdə 26 ölkə iştirak edib. Gürcüstanı müsabiqədə Mariam Şengelia "Freedom" (Azadlıq) adlı mahnı ilə təmsil edib.

Avroviziya 2025-in finalı Gürcüstanda birbaşa olaraq ölkənin Birinci Kanalı vasitəsilə yayımlanıb.

İDMAN İDMAN

## "QARABAĞ" MÜKAFATLANDIRILDI

***Azərbaycan Premyer Liqasının 36-cı turunun "Qarabağ" - "Kəpəz" oyunundan (3:0) sonra mükafatlandırılma mərasimi keçirilib.***



"Azersun Arena"da olan mərasimdə əvvəlcə mövsümün qalibi "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov və komandanın oyunçuları Toral Bayramov, Musa Qurbanlı açıqlama veriblər.

Daha sonra isə AFFA və PFL rəhbərliyi tərəfindən çempionluq kuboku və qızıl medallar təqdim edilib.

Qeyd edək ki, "Zirə" mövsümü gümüş, "Araz-Naxçıvan" isə bürünc medalçı kimi bitirib.

Xatırladaq ki, "Qarabağ" tarixində 12-ci dəfə çempionluq kubokunu başı üzərinə qaldırıb.

## TÜRKİYƏ SUPERLİQASI: "QALATASARAY" ÇEMPİONLUĞU TƏMİN ETDİ

***Türkiyə Superliqasında 36-cı turun oyunları keçirilib.***

Matçlardan sonra çempionun adına aydınlıq gəlib.

Lider "Qalatasaray" öz meydanında "Kayserispor"u qonaq edib. Görüş meydan sahiblərinin inamlı qələbəsi ilə yekunlaşıb - 3:0.



"Qalatasaray"ın ən yaxın izləyicisi "Fənərbağça" ev matçında "Eyüpspor"u qəbul edib. "Sarı-lacivərdlər" matçı qələbə ilə başa vursalar da, komandanın çempionluq yarışından kənarda qalmasına etiraz edən azarkeşlər tribunaları boş qoyublar - 2:1.

Beləliklə də, sona 2 tur qalmış "aslanlar" 89 xal toplayaraq digər klublar üçün əlçatmaz olub və sayca 25-ci çempionluğu təmin ediblər. "Fənər" liderdən 8 xal geri qalır. Komanda son qələbəsi ilə növbəti mövsüm üçün UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinə vəsiqə qazanıb. "Qartallar" isə üçlükdəki yerlərini "Samsunspor"a təhvil verərək 59 xalla 4-cü pilləyə eniblər.

HUMANİZM

## QIZILHACILI İMAM HƏSƏN (Ə) MƏSCİDİNİN DƏSTƏYİ İLƏ QƏZZADA YERLİ ƏHALİYƏ İSTİ YEMƏK PAYLANILIB

***Marneuli bələdiyyəsinin Qızılhacılı kəndində yerləşən İmam Həsən (ə) adına məscidin dəstəyi ilə Qəzzada yerli əhaliyə isti yemək paylanılıb.***




Bu barədə məscidin səhifəsində məlumat paylaşılıb.

Məlumata görə, Qızılhacılı İmam Həsən (ə) məscidindən Qəzza məzlumlarına dəstək aksiyası çərçivəsində yardım fəaliyyətləri davam edir.

Aksiyanın ilk mərhələsi 11 mayda həyata keçirilib. 16 may tarixində isə dəstək aksiyasının ikinci mərhələsi təşkil olunaraq, Qəzza sakinlərinə yenidən isti yeməklər paylanılıb.

## SƏHƏRİN SÜKUTUNDA ÇOBAN YOLU



Foto E.Şahvələdindir.

SAĞLAMLIQ

## PARKİNSON XƏSTƏLİYİ GƏLƏCƏKDƏ MÜALİCƏ OLUNA BİLƏR

***ABŞ-nin San-Fransisko şəhərində yerləşən Kaliforniya Universitetindən olan tədqiqatçılar uzun illər müalicəsinin olmadığı düşünülən Parkinson xəstəliyinə qarşı potensial əlac tapıb.***

Bu barədə xarici KİV-lər məlumat yayıb.

Kaliforniya Universitetinin (San-Fransisko) tədqiqatçıları bildirirlər ki, halusinoqen təsirli "psilosibin" maddəsindən ("sehrli göbələklər"də rast gəlinən birləşmədən) istifadə degenerativ hərəkət pozuntusu olan xəstələrdə əhval-ruhiyyəni, idrak və motor funksiyalarını yaxşılaşdıra bilər.

"Biz hələ bu işin çox erkən mərhələsindəyik, amma ilkin tədqiqat gözlədiyimizdən də uğurlu oldu," – Universitetin Translyasiya Psixodelik Tədqiqat Proqramının direktor müavini, dosent tibb elmləri doktoru Ellen Bredli bildirib.

Parkinson Alzheimer xəstəliyindən sonra ikinci ən geniş yayılmış neyrodegenerativ xəstəlik sayılır. Belə xəstələrin sayı ən çox Çin, Hindistan, ABŞ, Yaponiya və Rusiyada qeydə alınıb. Bu xəstəlik beyindəki dopamin istehsal edən neyronların tədricən məhv olması nəticəsində yaranan, titrəmə, hərəkətin ləngiməsi, əzələ sərtliyi və tarazlıq pozğunluğu ilə xarakterizə olunan xroniki, proqressiv neyrodegenerativ pozuntudur. Adətən 60 yaşdan yuxarı şəxslərdə müşahidə olunur, lakin daha erkən yaşlarda da baş verə bilər.

## XANKƏNDİNDƏ BAŞ TUTACAQ DİASPOR GƏNCLƏRİNİN VI YAY DÜŞƏRGƏSİNƏ QEYDİYYAT DAVAM EDİR

"Konstitusiya və Suverenlik ili"nə həsr olunan və 2025-ci ilin 3–9 avqust tarixində Xankəndidə keçiriləcək Diaspor Gənclərinin Vl Yay Düşərgəsinə qeydiyyat prosesi davam edir.




Bu barədə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi məlumat yayıb.

Məlumatda bildirilir ki, VI düşərgənin elan olunmasından ötən qısa müddət ərzində 100-dən artıq gənc iştirak üçün müraciət edib.

Qeyd edək ki, müraciətlərin sayının çoxluğu layihəyə olan xüsusi marağın, onun beynəlxalq nüfuzunun artmasının, eyni zamanda xaricdə yaşayan gənclərimizin işğaldan azad olunmuş əraziləri görmək, daha yaxından tanımaq və onun inkişafına birbaşa şahid olmaq istəyinin bariz nümunəsidir.

İştirak üçün 31 may 2025-ci il tarixinə qədər **www.diaspor.gov.az/**qeydiyyat səhifəsində yerləşdirilmiş onlayn anket forması tam olaraq doldurulub göndərilməlidir. Seçim prosesi iki mərhələdə – müraciətlərin qəbulu və videomüsahibələr formasında keçiriləcək.

Qeydiyyat, proqram, iştirakçıların seçim prosesi və digər vacib məlumatları əldə etmək üçün **www.diaspor.gov.az** saytını diqqətdə saxlamaq vacibdir.

Əlavə məlumat üçün:
**E-mail: youthcamp@diaspora.gov.az**
**Tel. +994 12 493 10 54**
**WhatsApp: +994 51 867 36 02**

Məlumat üçün bildirək ki, Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə bu günə kimi Diaspor gənclərinin Şəki, Şamaxı, Şuşa, Naxçıvan və Laçın şəhərlərində beş yay düşərgəsi təşkil olunub. Bu düşərgələrdə dünyanın 60-dan artıq ölkəsindən yüzlərlə gənc iştirak edib.


**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur. Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.